# Şəhidlik zirvəsinə yüksələnlər daim qəlblərdə yaşayır

**Şəhidlik Vətən, torpaq, böyük amallar uğrunda candan keçmək, özünü bu yolda qurban verərək ömür payını gələcək nəsillərin xoşbəxtliyinə bağışlamaqdır. Həyatda ən böyük xoşbəxtlik də elə Vətən yolunda şəhid olmaqdır. Ən ali, müqəddəs və şərəfli olan şəhidlik zirvəsinə yüksələnlər daim qəlblərdə yaşayırlar. Vətən uğrunda gözünü qırpmadan, ölümün gözünə dik baxan oğul və qızlarımızı yad etmək, xatirəsini əziz tutmaq isə hər birimizin ən müqəddəs borcudur.**

Bugünlərdə şəhid əsgər Ülvi Habil oğlu Cəfərovun doğum günü Xok kəndində anılıb.

Şəhid əsgər Ülvi Habil oğlu Cəfərovun doğum günü onun doğulub boya-başa çatdığı Xok kəndində yerləşən müqəddəs məzarı önündə anılıb.



Anım tədbirində rayon ictimaiyyətinin nümayəndələri, şəhidin ailə üzvləri, kənd sakinləri və yaxınları iştirak ediblər.

Tədbir Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Daha sonra dini icmanın üzvü tərəfindən Qurani-Kərimdən ayələr oxunaraq şəhidlərin ruhuna dualar edilib.

Kəngərli Rayon İcra Hakimiyyəti başçısının müavini Cəlil Rüstəmov çıxış edərək şəhid Ülvi Cəfərovun Vətən uğrunda göstərdiyi şücaətdən danışıb, onun qəhrəmanlığının heç zaman unudulmayacağını bildirib. Qeyd olunub ki, şəhidlərimizin xatirəsi daim uca tutulur, onların ailələri dövlət və cəmiyyət tərəfindən diqqət və qayğı ilə əhatə olunur.

Tədbirdə şəhidin atası çıxış edərək göstərilən diqqət və ehtirama görə təşəkkürünü bildirib, oğlunun Vətən yolunda şəhid olmasından qürur duyduğunu ifadə edib.

Tədbirin davamında Xok kəndindən olan digər şəhidlərin məzarları ziyarət olunub, üzərlərinə tər qərənfillər qoyulub, ruhlarına dualar edilib.

Sonda tədbir iştirakçıları şəhid məzarları önündə xatirə fotosu çəkdiriblər.

*Səhifəni hazırladı:*
***Bəxtiyar ƏLİYEV***
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü, Naxçıvan Şəhid Ailələri İctimai Birliyinin mətbuat katibi*